

# NAĞIL DÜNYAMIZIN NAXIŞI XALÇA

*İstər zaman, istərsə də məkan dərinliyinə nəzər salmış olsaq görərik ki, qədim dövrlərdən bu günümüzə qədər gəlib çıxmış olan sehrli, nağıllı xalçaçılıq sənəti həmişə insanları düşündürmüş və onların gərəyi olmuşdur. İllər keçdikcə bu sənət növü daha da inkişaf etmiş, rəmzi naxışlarla zənginləşmiş və muzeylərimizin bəzəyi olmuşdur. İlkin rüşeymi primitiv "keçə"çilik sənəti ilə başlayan bu gözəl sənət növü, sonralar süjetli xalçaçılıq formasına qədər inkişaf etmişdir.*

Azərbaycan xalçalarında sənət tariximizin naxışsalma mədəniyyəti, qədim yazı mədəniyyəti və ən başlıcası isə ümumən tariximiz yaşayır. Ümumiyyətlə, xalçaçılıq sənəti dekorativ-tətbiqi və təsviri sənət növlərinin sintezindən yarandığına görə bunları oxumaq, anlamaq digər sənət növlərinə nisbətən daha çətindir. Çox mürəkkəb texnoloji proseslərdən keçərək, ilmələrlə naxışlanan və nağıllaşan bu sehrli sənət mürəkkəb olduğu kimi, onun fəlsəfəsini də anlamaq çox mürəkkəbdir. Üzərində naxışlardan başqa heç bir söz yazılmayan, lakin milli sənət mədəniyyətimizdən, mifoloji tariximizdən, klassik ədəbiyyatımızdan, əfsanələrimizdən xəbər verən xalçalarımız lal insana bənzəyir. Onları oxumaq və danışdırmaq isə lal insanın dilini başa düşməyə, anlamağa bənzəyir.

Xalçalarda naxışsalma əsas amillərdəndir. Buradakı naxışların hər biri öz formasına görə məqsədli məzmun daşıyır. İstər semantik, istərsə də estetik baxımdan olursa-olsun bu naxışlarda mütləq bir insan şüurunun fəlsəfəsi dayanır: gözləri oxşamaq, rəng həlli, kompozisiya və proporsionallıq. Buna görə də xalçaçı sənətkarlar daim axtarışda olmuş və özlərinin çeşnilərini yaratmışlar. Daha doğrusu, xalçalara öz sənət möhürlərini vurmuşlar. Bir ərazinin çeşnisi digərlərindən fərqlənmiş və müxtəlif qruplara bölünərək xalçalarda öz izlərini qoymuşdur: Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz-Naxçıvan. Bu qruplara bölünən xalçalarda həmin ərazilərin tarixi çeşniləri əks olunur ki, bunları özgələşdirmək olmaz. Əgər biz Azərbaycan xalçaları üçün çox xarakterik olan milli-mifoloji zəmində yaranmış tək bir "Buta" elementini götürmüş olsaq bu elementin özü dörd qrupa bölünür: 1. Ərazi adlı butalar. 2. Ailəvi butalar. 3. Hörmət əlamətli butalar. 4. Müxtəlif formalı butalar.

Bu qruplara bölünən butaların özləri isə onlarla adda tanınır: Muğan buta, Xilə buta, Bakı buta, Şirvan buta, Sərabi buta, Gəncə buta, bala buta, hamilə buta, evli buta, qoşa arvadlı buta, cıqqa buta, lələk buta, küsülü buta, qovuşan buta, fətir buta, yazılı buta, əyri buta, düz buta, qoşa buta və s. Bu elementləri bilmədən, anlamadan xalçanı dərk etmək olmaz. Əgər bizim "Qaraqoyunlu", "Ağqoyunlu" dövlətləri haqqında geniş təsəvvürümüz olmasa biz xalçalardakı "Buynuzu", "Qayçı" və yaxud da "Paqonu" adlanan xalçaçılıq elementlərini, məşhur "Pirəbədil" xalçasındakı simvolik təsvirləri nə aça, nə də ki, oxuya bilərik. Yaxud da qədim Azərbaycan xalçalarında tez-tez rast gəldiyimiz "Dünya ağacı"nın rəmzi elementini biz oxumaq üçün və bunun dünya ağacı olmasını bilmək üçün, mütləq halda Türk xalqlarının mifoloji tarixini dərindən bilməliyik. (Bildiyimiz kimi, "Dünya ağacı" (Qayın ağacı) uşaqların hamisi Umayla birlikdə yerə enmişdir.) Yalnız bundan sonra biz bütün dünya sənətsevərlərini heyran edən sehirli və nağıllı xalçalarımızın üzərindəki naxışlarla nənələrimizin bizlərə nələr demək istədiyini anlaya bilərik. Və bu zaman biz lal xalçalarımızın qarşısında saatlarla dayanan tamaşaçılarımızın heyranlığından fəxr





edə bilərik. Belə tamaşaçılarımız isə gündə yüzlərlə olur. Həm də dünyanın müxtəlif yerlərindən: Amerikadan, Fransadan, Almaniyadan, İngiltərədən, Hindistandan, Çindən, Yaponiyadan, Yunanıstandan, Monqolustandan, Rusiyadan, Türkiyədən, İrandan və öz ərazilərimizdən.

Bu gün Azərbaycan adlanan vətənimizin tarixini öyrənmək və təbliğ etmək üçün, muzeylərimizdə saxlanan qiymətli eksponatların çox böyük önəmi vardır. Belə eksponatlar isə muzeylərimizdə yüz minlərlədir. Və bunların qorunub-saxlanılması, təbliği dövlətimizin daimi qayğısındadır.

*Bu mənada, Naxçıvan Dövlət Xalça muzeyi də bu qayğıdan kənarda deyil. Biz də çalışırıq ki, bu qayğıya cavab olaraq qiymətli sənət əsərlərimiz olan naxışlı xalçalarımızın sirli dünyasını açaq, araşdıraq.*

**Arif Qədim,**
**Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru, Azərbaycan Respublikasının əmekdar mədəniyyət işçisi**